"2024-cü ili uğurla başa vururuq. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapmışdır. Ölkəmiz inamla inkişaf etmişdir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Ölkə iqtisadiyyatında müsbət inkişaf var, hərbi gücümüz artıb. Ölkəmizdə sabitlik hökm sürür. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşamışdır". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində yer alır.

Qədəm qoyduğumuz 2025-ci ildən gözləntilər

Dövlət başçısı qeyd edib ki, bu gün dünyada baş verən hadisələr hamımızın gözünün qarşısındadır. Yeni müharibələr, qarşıdurmalar, münaqişələr alovlanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar davam edir. "Azərbaycan isə sülh, əminamanlıq, təhlükəsizlik və sabitlik şəraitində yaşayır. Əminəm ki, bundan sonra sabitlik və əminamanlıq əbədi olacaqdır".

Əvvəlki illərdə olduğu kimi, yola saldığımız 2024-cü il də Azərbaycanın müasir tarixinə mühüm tarixi nailiyyətlərin imza atıldığı il oldu. Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət nəticəsində Ermənistanın işğalçılıq siyasətinin nəticələrinin aradan qaldırılması istiqamətində addımlar atıldı, zəfər seçkiləri kimi qeyd olunan Prezident və sonra Parlament seçkiləri keçirildi. Xalqımızın dövlətçilik tarixində ilk dəfə idi ki, seçkilər bütöv, suveren Azərbaycan ərazilərinin hər yerində, o cümlədən işğaldan azad olunmuş bütün şəhər və kəndlərdə keçirildi. 2024-cü ildə ilk dəfə olaraq Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya üzrə danışıqlar start götürdü.

Aprelin 19-da əldə edilən ilkin razılaşmaya əsasən Azərbaycanın Qazax, Ermənistanın Tavuş rayonu arasındakı sərhədin bir neçə seqmentinin, xüsusən də Azərbaycanın nəzarətinə qaytarılan dörd kənd ətrafında sərhədlərin delimitasiyası üzrə işlər başa çatdırılıb. Baş nazirin müavini Şahin Mustafayevin ofisinin məlumatına görə, delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib. Bununla Qazax rayonunun dörd kəndi: Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı Azərbaycana qaytarılıb.

Bundan əlavə, ötən il neokolonializmə qarşı mübarizəni prioritet elan edən Azərbaycan bu istiqamətdə beynəlxalq tədbirlərin keçirilməsi, təşəbbüslərin genişləndirməsi ilə yadda qaldı. Ən əsası 2024-cü ildə Azərbaycan BMT-nin ən ali iqlim tədbirlərindən birinə - COP29-a ev sahibliyi etdi ki, bu da onun beynəlxalq aləmdə nüfuzunun daha da artması deməkdir. 76 min qonağın, 80-ə yaxın dövlət rəhbərinin qatıldığı tədbirdə Azərbaycan ev sahibi kimi ən yüksək səviyyədə təşkilatçılıq işlərini həyata keçirdi. Ölkəmiz tədbirə uğurla ev sahibliyi etməklə beynəlxalq ictimaiyyətin bir daha etimadını və etibarını qazanıb. COP29 dövlətin artan nüfuzuna daha bir çalar qatıb. Qonaqların qəbulu, onların yerləşdirilməsi, təhlükəsizliyinin təmin edilməsi və başqa məsələlər uğurlu təşkilatçılığa örnək ola bilər.

Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi və uğrunda mübarizə apardığı dayanıqlı iqtisadi müstəqillik siyasəti üzərində qurulmuş davamlı siyasi müstəqillik prinsipi ölkəmizə həmişə güc-qüdrət vermiş, yaşadığımız qlobal böhranlardan Azərbaycanın dünyanın əksər ölkələri ilə müqayisədə minimum itkilərlə çıxmasına şərait yaratmışdır. Azərbaycan dünyanın heç bir beynəlxalq maliyyə qurumunun yardımına, dəstəyinə ehtiyac duymadan bütün problemlərin daxili imkanlar hesabına həll edilməsinə nail olması Prezident cənab İlham Əliyevin böyük qələbəsidir.

Dövlət başçısının müraciətində əksini tapan nikbin notlar belə deməyə əsas verir ki, ilk günlərini yaşadığımız 2025-ci ildən də gözləntilər böyükdür. İqtisadiyyatımızın inkişafı müdafiə gücümüzün artırılması istiqamətində atılan addımlarda da özünün aydın ifadəsini tapır. Bunun təsdiqi üçün təkcə bu rəqəmi qeyd etmək kifayətdir ki, 2025-ci ilin dövlət büdcəsindən ayırmalarda hərbi xərclər 8,4 milyard manat təşkil edir. Hərbi büdcəmizin rekord həddə çatmasına əsas verən Ermənistanın Cənubi Qafqazda başlatdığı silahlanma yarışıdır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan geridə qala bilməzdi. Əgər bu silahlanma yarışı olmasaydı, həmin bu pulun ən azı yarısı digər sahələrə, Qarabağın, Şərqi Zəngəzurun bərpa edilməsinə, vətəndaşlarımızın sosial problemlərinin həllinə yönəldiləcəkdi. Müqayisə üçün qeyd edək ki, hərbi xərclərimiz 8,4 milyard manat, Qarabağın və Şərqi Zəngəzurun bərpasına istiqamətləndirilən məbləğ isə 4 milyard manatdır. Ərazilərimizin işğaldan azad edilməsindən sonra Qarabağda geniş miqyasda quruculuq-abadlıq həyata keçirilir. Ötən 4 ildən artıq müddət ərzində Qarabağ geniş tikinti meydanına çevrilib və ölkəmizin bu dilbər guşəsində yeni həyat başlayıb. Bu il Qarabağda quruculuq-abadlığın miqyası daha da genişlənəcək və nəticə etibarilə azad olunan ərazilərimizə qayıdış prosesi sürətlənəcək. Artıq 10 minə yaxın keçmiş məcburi köçkünün bu torpaqlara qayıtması görülən genişmiqyaslı işlərin nəticəsidir. Bütövlükdə isə azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır və onlar yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində işləyirlər. Prezident İlham Əliyev müraciətində 2025-ci ilin hədəfləri sırasında onu da qeyd etdi ki, Qarabağa və Şərqi Zəngəzura qayıdacaq vətəndaşların sayı böyük dərəcədə artacaq. 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına Azərbaycan 19 milyard manatdan çox vəsait ayırıb və bundan sonra da Böyük Qayıdış Proqramının icra edilməsi prioritet məsələ olacaq.

Ölkəmiz ərazi bütövlüyü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda stabil dövlət statusu qazanıb. Ötən 2024-cü ildə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanacağı gözləntiləri çox idi. Analitiklərin bir çoxu 2024-cü ili "sülh ili" kimi xarakterizə edirdilər. Bu proqnozlar üçün təbii ki, əsaslar da mövcud idi. Çünki 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu Qarabağda keçirdiyi antiterror əməliyyatı ilə suverenliyini bütün ərazilərində bərpa etdi. Qarabağda yaşayan təxminən 20 min erməninin bölgəni könüllü şəkildə tərk etməsindən sonra sülh sazişinin imzalanması üçün real şəraitin yetişdiyi düşünülürdü. Amma sülh sazişi üçün Azərbaycan tərəfinin şərtlərinin - Ermənistan konstitusiyasında dəyişiklik və ATƏT-in Minsk qrupunun de-yure ləğvi üçün tərəflərin birgə müraciətinin İrəvan tərəfindən yerinə yetirilməməsi sülh müqaviləsinin imzalanmasına maneə yaratdı. Artıq 2025-ci ilin ilk günlərini yaşayırıq. Bu il də yekun sülh sazişinin imzalanacağını düşünənlər mövcuddur. Azərbaycan isə çoxvektorlu xarici siyasət yürütməklə həm beynəlxalq aləmdə nüfuzunu artırır, həm də daxili sabitlik qazanıb. Prezidentin xalqa müraciətində xüsusilə İrəvan hökumətinə ünvanlanan açıq mesaj diqqət çəkir: "Cənubi Qafqazda yeni reallıqları biz yaratdıq. Vətən müharibəsi bu reallıqları yaratdı, dövlət suverenliyimizin bərpası bu reallıqları daha da gücləndirdi və biz Cənubi Qafqazda yaratdığımız yeni reallıqları diplomatik, beynəlxalq və siyasi müstəvidə təsdiqlədik. Bütün dünya yeni reallıqları qəbul edib". Azərbaycan bir daha bəyan edir ki, regionda sülh və əmin-amanlıq prioritetdir və ümid edir ki, bu mesaja da 2025-ci ildə diqqət yetiriləcək. Əsas da Ermənistan bunu anlamalıdır. Ermənistanın genişmiqyaslı və sürətli silahlanması, öldürücü silahların tədarükü sülhü poza bilər. Lakin heç bir qüvvə, güc mərkəzi də Azərbaycan dövlətinin iradəsinə təsir göstərə və yolundan döndərə bilməz.

Prezident Konstitusiyanın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci ili Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edib. Bu barədə Sərəncamda deyilir ki, bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Mustafa KAMAL,
"Respublika".